a.1 Fəhlələri (kənd təsərrüfatı fəhlələri də daxil olmaq şərtilə) əhatə edən sosial sığortalar (xəstəlik, analıq, işdəki qəzalar ilə, peşə ilə bağlı xəstəliklər, əmək qabiliyyətinin itirilməsi, yaşlılıq və ölüm) haqqında qanunvericilik;

a.2 Dövlət məmurlarını əhatə edən Türkiyə Respublikası Əməkli Sandığı haqqında qanunvericilik (əmək qabiliyyətinin itirilməsi, yaşlılıq və ölüm);

a.3 Sahibkarlar və sənətkarlar və digər müstəqil fəaliyyət göstərənlər və kənd təsərrüfatında öz hesabına və fərdi olaraq çalışanlar haqqında qanunvericilik (əmək qabiliyyətinin itirilməsi, yaşlılıq və ölüm);

a.4 506 saylı Sosial Sığortalar Qanununun müvəqqəti 20-ci maddəsinə tabe olan sandıqlarla əlaqədar qanunvericilik.

(b). Azərbaycan Respublikası baxımından:

b.1 "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu

b.2 "Əhalinin məşğulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu

b.3 "Əməyin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu

b.4 "Məzunlyyətlər haqqında" Azərbaycan Respublikasının Qanunu

b.5 "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının Qanunu

2. Bu Saziş, 2-ci maddənin 3-cü bəndinin müddəalarının saxlanması şərtilə 2-ci maddənin 1-ci bəndində göstərilən qanunvericiliyi dəyişdirən, ona əlavələr edən, onu birləşdirən və ya əvəz edən qanun və normativ-hüquqi sənədlərə də tətbiq edilir.

3. Bir Tərəfin qanunvericiliyində yardım üçün yeni haqqlar qazandıran dəyişikliklər edildikdə, digər Tərəfə üç ay ərzində məlumat verilir. Digər Tərəf 3 ay ərzində həmin dəyişikliklərə öz etirazını bildirməzsə, bu Saziş həmin dəyişikliklərə də tətbiq edilir.

4. Bu Sazişin sosial sığortanın yeni bir sahəsinə dair qanunvericiliyə şamil edilməsi, Tərəflər arasında bu məqsədlə əlavə Saziş imzalanması yolu ilə həyata keçirilir.

Maddə 3
Tətbiq olunduğu şəxslər

Bu Saziş bir və ya hər iki Tərəfin qanunvericiliyinin tətbiq edildiyi və ya tətbiq edilmiş olduğu şəxslərə və onların iki ölkədən birinin qanunvericiliyinin təsir dairəsində olan ailə üzvlərinə və buna hüququ olan digər şəxslərə tətbiq edilir.

Maddə 4
Fəaliyyət bərabərliyi

3-cü maddədə göstərilən şəxslər Tərəflərin qanunvericiliyində nəzərdə tutulan eyni hüquqa malikdirlər və bərabər məsuliyyət daşıyırlar.

Maddə 5
Yardımların ixracı

1. Bu Saziş əsasında əldə edilən yardımlar da daxil olmaqla, 3-cü Maddədə göstərilən hər hansı bir şəxsə bir Tərəfin qanunvericiliyinə müvafiq surətdə ödəniləcək yardımlar, həmin şəxsin digər Tərəfdə yaşaması səbəbindən hər hansı bir şəkildə azaldılmır, dondurulmur, dayandırılmır, ləğv və ya müsadirə edilmir və digər Tərəf ölkəsində də ödənilir.

2. Bu Maddənin birinci bəndinin müddəaları Sazişin tətbiq edildiyi şəxslərin üçüncü bir ölkədə olduqları halda da tətbiq edilir.

II BÖLMƏ
TƏTBİQ EDİLƏCƏK QANUNVERİCİLİKLƏ
ƏLAQƏDAR MÜDDƏALAR

Maddə 6

Bu Sazişin 7-ci və 8-ci maddələrinə zidd olmadıqda, bir Tərəf ölkəsində əmək fəaliyyəti ilə məşğul olan şəxs, bu fəaliyyətlə əlaqədar olaraq yalnız həmin ölkə qanunvericiliyinə tabe olur.

Maddə 7

1. Bir Tərəfin qanunvericiliyinə tabe olan və həmin Tərəfin işəgötürəni tərəfindən digər Tərəf ölkəsinə 24 aydan az bir müddətə işləməyə göndərilən bir şəxs, bu

xidmətləri birinci Tərəf ölkəsində yerinə yetirirmiş kimi yalnız birinci Tərəf ölkəsinin qanunvericiliyinə tabe olur. Hər iki Tərəfin Səlahiyyətli Orqanlarının əvvəlcədən təsdiqi ilə bu müddət, ümumilikdə 60 ayı keçməmək şərtilə uzadıla bilər.

2. Tərəf ölkələrdən birinin ərazisində öz vəsaiti hesabına fəaliyyət göstərən şəxs, öz fəaliyyətini müvəqqəti olaraq ikinci Tərəf ölkənin ərazisində həyata keçirmək məqsədi ilə bu ölkəyə gəldiyi halda, 24 aya kimi birinci ölkədə fəaliyyət göstərirmiş kimi ona birinci Tərəfin qanunvericiliyi tətbiq edilir. Hər iki Tərəfin Səlahiyyətli Orqanlarının əvvəlcədən təsdiqi ilə bu müddət, ümumilikdə 60 ayı keçməmək şərtilə uzadıla bilər.

3. Tərəf ölkələrin birində mərkəzi olan hava, avtomobil və dəmir yolu nəqliyyatı və ya telekomunikasiya firma və şirkətlərində işləyən şəxsə, digər Tərəf ölkəyə göndərildiyi halda, göndərən tərəfin qanunvericiliyi tətbiq edilir.

4. Gəmi heyəti və gəmidə olan digər əməkdaşlar gəminin daşıdığı bayrağın aid olduğu Tərəf ölkənin qanunvericiliyinə tabedirlər.

5. Tərəflərdən birinin digər Tərəf ölkəsindəki şöbə və ya daimi nümayəndəlik bürolarında işləyən şəxslər, şöbə və ya nümayəndəliyin yerləşdiyi Tərəf ölkənin qanunvericiliyinə tabedirlər.

6. Bir Tərəf ölkənin dövlət təşkilatlarında, rəsmi nümayəndəliklərində və ya buna bərabər tutulan təşkilatlarında işləyən şəxslər vətəndaşı olduğu tərəfin qanunvericiliyinə tabe olurlar. Bu şəxslər digər Tərəfin vətəndaşı olduqları halda və ya daimi olaraq həmin ölkədə yaşayırlarsa onlara, daimi yaşadıqları ölkənin qanunvericiliyinin tətbiq edilməsini, işə başladıqları tarixdən etibarən üç ay ərzində tələb edə bilərlər.

Maddə 8
Diplomatik və Konsulluq nümayəndəlikləri

1. Diplomatik və konsulluq nümayəndəliklərində işləyənlərə və onlara bərabər tutulan şəxslərə, göndərən tərəfin qanunvericiliyi tətbiq edilir.

2. Bir Tərəfin diplomatik və konsulluq nümayəndəliklərində ölkələri tərəfindən göndərilmədən işləyən şəxslərə, bu nümayəndəliklərin yerləşdiyi ölkənin qanunvericiliyi tətbiq edilir.

3. Bu Maddənin 1-ci və 2-ci bəndində göstərilənlər istisna olmaqla, diplomatik və ya konsulluq nümayəndəliyinin aid olduğu ölkənin vətəndaşı olan şəxslər, yaxud həmin ölkədə daimi yaşayan şəxslər, işə başladıqları tarixdən etibarən üç ay ərzində onlara Tərəf ölkələrdən birinin qanunvericiliyinin tətbiq edilməsini tələb edə bilərlər.

Maddə 9
İstisnalar

İşçi və işəgötürənin birgə tələbləri əsas götürülərək hər iki Tərəfin Səlahiyyətli Orqanları, bu orqanlar tərəfindən göstərilən Səlahiyyətli İdarələrin qarşılıqlı razılığı ilə Sazişin 6-cı və 7-ci maddələrinin müddəalarının tətbiq edilməsində istisna hallar müəyyən edilə bilər.

III BÖLMƏ
XÜSUSİ MÜDDƏALAR

1-ci HİSSƏ
XƏSTƏLİK VƏ ANALIĞA (HAMİLƏLİK VƏ DOĞUMA) GÖRƏ YARDIMLAR

Maddə 10
Sığortalılıq müddətlərinin birləşdirilməsi

Tərəflərdən birinin qanunvericiliyinə görə xəstəlik, hamilelik və doğumla əlaqədar yardım hüququnun meydana gəlməsi, müəyyən sığortalılıq müddətlərinin tamamlanmasına bağlı olduğu hallarda, bir Tərəfin Səlahiyyətli İdarəsi sığortalılıq müddətlərini birləşdirmək yolu ilə digər Tərəfin qanunvericiliyinə görə tamamlanmış sığortalılıq müddətlərini, eyni vaxta təsadüf etməmək şərti ilə öz qanunvericiliyinə görə tamamlanmış müddətlər kimi nəzərə alır.

Maddə 11
Tibbi yardımlardan istifadə

1. İşəgötürənləri tərəfindən müəyyən bir işin icrası üçün müvəqqəti olaraq digər Tərəf ölkəsinə göndərilən sığortalanan şəxsin təcili müalicəyə ehtiyacı olarsa, onun müalicəsi getdiyi ölkənin əlaqədar idarəsi tərəfindən həyata keçirilir. Bu halda, xəstəxanada yatmaq da daxil olmaqla müalicə xərcləri göndərən ölkənin sosial müdafiə idarəsi tərəfindən, müalicəni həyata keçirən orqana ödənilir.

2. Tərəflərdən birinin qanunvericiliyinə görə sığortalanaraq işləyən şəxslərin, müvəqqəti olaraq digər Tərəf ölkəsində olduqları zaman təcili və təxirəsalınmaz tibbi yardıma ehtiyacları olarsa, xəstəxanada yatmaq da daxil olmaqla müalicə xərcləri qeydiyyatda olduqları ölkənin Səlahiyyətli İdarəsi tərəfindən ödənilir.

3. 2-ci bənddə nəzərdə tutulan şəxslər, digər Tərəf ölkəsində başladıqları müalicəni sığortalı olduqları ölkədə də davam etdirə bilərlər.

4. 1-ci, 2-ci və 3-cü bəndlərin müddəaları sığortalı şəxsin ailə üzvlərinə də şamil edilir.

Maddə 12

1. Sığortalı şəxs onu sığorta edən ölkənin qanunvericiliyinə görə tibbi yardım almaq hüququ qazandığı halda, digər Tərəf ölkəsində yaşayan ailə üzvləri, yaşadıqları ölkənin qanunvericiliyinə görə tibbi yardımlardan istifadə etmək hüquqlarına malik olmadıqları halda xəstəlik və analığa görə sığorta hüququ ilə qazandığı haqqdan ödənilən tibbi yardımlardan istifadə edirlər.

2. Ailə üzvləri yaşayış yerlərini Səlahiyyətli Orqanın yerləşdiyi ölkəyə dəyişdikdə və ya müvəqqəti olaraq həmin ölkədə olduqda, tibbi yardımlardan olduqları Tərəfin qanunvericiliyinə əsasən istifadə edirlər.

3. Sığortalı şəxsin tibbi yardımlardan istifadə etmək hüququna malik olması, işlədiyi ölkənin qanunvericiliyinə görə müəyyən edilir.

4. Sığortalı şəxsin digər Tərəfdə yaşayan ailə üzvləri, sığortalı şəxsin işlədiyi ölkədəki qanunvericiliyə görə əldə etdiyi tibbi yardımlardan işlədiyi ölkənin Səlahiyyətli İdarəsi hesabına istifadə edir.

5. Yardım hüququnun əldə edilməsi şərtləri və yardımların ödənilməsi müddəti Səlahiyyətli İdarənin yerləşdiyi ölkənin qanunvericiliyinə əsasən müəyyən edilir.

Maddə 13

Aylıq yardım alan şəxslərin tibbi yardımlardan istifadə etməsi

1. Hər iki Tərəf ölkənin qanunvericiliyinə görə aylıq və ya gəlir təyin edilmiş şəxs, tibbi yardımlardan daimi yaşadığı ölkənin qanunvericiliyinə əsasən istifadə edir.

2. Tərəflərdən yalnız birinin qanunvericiliyinə görə, aylıq və ya gəlir təyin edilmiş şəxsə, digər Tərəf ölkəsində yaşadığı təqdirdə tibbi yardımlar, aylıq yardım ödəyən Tərəfin Səlahiyyətli İdarəsi hesabına, yaşadığı ölkənin Səlahiyyətli İdarəsi tərəfindən həyata keçirilir.

3. Bu maddənin 1-ci bəndində nəzərdə tutulan şəxslər digər Tərəf ölkəsində müvəqqəti yaşadıqda, onlara təcili yardım göstərilməsi zəruri olduğu halda, daimi yaşadığı ölkənin Səlahiyyətli İdarəsinin hesabına müvəqqəti olduğu Tərəfin Səlahiyyətli Orqanı tərəfindən həyata keçirilən tibbi yardımlardan istifadə edirlər.

4. Bu maddənin 1-ci, 2-ci və 3-cü bəndlərinin müddəaları həmin bəndlərdə nəzərdə tutulan sığortalı şəxsin ailə üzvlərinə də şamil edilir.

Maddə 14

Protezlər və zəruri tibbi yardımlar, pul yardımları

1. Protezlər və digər zəruri tibbi yardımlar, şəxsin həyatı və səhhəti üçün təhlükə doğuran təcili hallar istisna olmaqla Səlahiyyətli İdarənin icazə verməsi şərti ilə həyata keçirilir. Bununla bağlı qayda və əsaslar İnzibati (Prosedur) Müqavilə ilə müəyyən edilir.

2. Pul şəklində yardımların (gündəlik ödəmələrin) ödənilməsi, aidiyyəti şəxsin qeydiyyatda olduğu Səlahiyyətli İdarənin müəyyən etdiyi qaydalara əsasən həyata keçirilir.

3. Tərəf ölkə qanunvericiliyində sığortalı şəxsə ediləcək pul yardımlarının ailə üzvlərinin sayına görə müəyyən edilməsi müddəası varsa, digər Tərəf ölkəsində yaşayan ailə üzvləri də nəzərə alınır.

Maddə 15
Analığa görə yardımlar

1. 10-cu Maddəyə görə birləşdirilən sığortalılıq müddətləri də nəzərə alınmaqla bir sığortalı qadının bir və ya hər iki Tərəfin qanunvericiliyinə əsasən analığa görə yardım almaq hüququ olarsa, yalnız uşağın doğulduğu ölkədə qüvvədə olan qanunvericiliyin müddəaları tətbiq olunur.

2. Sığortalı kişinin sığortalı olmayan arvadı da analıq vəziyyətində tibbi yardımlardan istifadə edir.

3. Analıq yardımı almaq hüququ qazanan hər hansı bir şəxsə göstərilən tibbi yardımlar bu Sazişin 11-ci və 12-ci maddələrindəki əsaslara müvafiq ödənir.

2-ci HİSSƏ
ƏLİLLİYƏ, QOCALIĞA VƏ ÖLÜMƏ GÖRƏ YARDIMLAR

Maddə 16
Sığortalılıq müddətlərinin birləşdirilməsi

1. Tərəflərdən birinin qanunvericiliyinə görə yardım almaq hüququnun meydana gəlməsi, qorunması və ya yenidən qazanılması müəyyən sığortalılıq müddətlərinin tamamlanmasına bağlı olduğu hallarda, bir Tərəfin Səlahiyyətli İdarəsi digər Tərəfdəki sığortalılıq müddətlərini, eyni vaxta təsadüf etməmək şərti ilə öz qanunvericiliyinə uyğun qəbul edərək birləşdirir.

2. Şəxs, bu Maddənin 1-ci bəndinin tətbiq edilməsinə baxmayaraq yardım ödənməsi hüququ qazana bilmədiyi halda, Səlahiyyətli İdarə, Tərəflərin sosial müdafiə müqavilələri imzalamış olduqları üçüncü bir ölkədəki sığortalılıq müddətlərini də birləşdirir.

3.Tərəflərdən birinin qanunvericiliyinə görə sığortalı olaraq ilk işə qəbul edilmə zamanı, yardım hüququnun qorunması və ya təkrar qazanılması şərtlərinin müəyyən edilməsində, digər Tərəfdəki müddətlər və ilk işə qəbul tarixi nəzərə alınır.

Maddə 17
12 aydan az olan sığortalılıq müddətləri

Qazanılmış sığortalılıq müddətləri cəmi 12 aydan az olduqda, şəxsin işlədiyi Tərəf ölkəsinin qanunvericiliyində 12 aydan az müddət üçün hər hansı bir yardım nəzərdə tutulmuşsa, yalnız həmin yardım ödənilir.

Bununla belə, bu müddət digər Tərəf qanunvericiliyində bir yardım hüququnun qazanılmasında nəzərə alına bilər.

Maddə 18
Yardımların hesablanması

1. Bir Tərəfin qanunvericiliyinə görə 16-cı maddə tətbiq edilmədən yardım hüququ meydana gəlirsə, həmin Tərəfin Səlahiyyətli İdarəsi təkcə öz qanunvericiliyinə uyğun olan sığortalılıq müddətlərini nəzərə alaraq yardımı müəyyən edir.

2. 1-ci bəndə əsasən yardım hüququ mövcud olmadıqda, bu Sazişin 16-cı Maddəsinə görə sığortalılıq müddətləri nəzərə alınaraq yardımlar aşağıdakı kimi hesablanır:

16-cı Maddənin tətbiq edilməsi ilə əlaqədar olaraq idarə, toplanmış sığortalılıq müddətlərini öz qanunvericiliyinə uyğun hesab edir və bundan sonra toplanmış müddətdən yalnız öz qanunvericiliyinə görə keçmiş müddəti nəzərə alaraq yardımın miqdarını müəyyən edir.

3. Tərəflərin qanunvericiliyində aylıq yardımın dayandırılması ilə bağlı müddəalar varsa, bu müddəalar Sazişin tətbiq edilməsində də nəzərə alınır.

3-cü HİSSƏ
ƏMƏK XƏSARƏTİ VƏ PEŞƏ XƏSTƏLİKLƏRİ

Maddə 19
Yardımlar

1. Sığortalı olduğu müddətdə əmək xəsarəti alan və ya peşə xəstəliyinə tutulan şəxs, yardımlardan Sazişin 3-cü Bölməsinin 1-ci Hissəsinin müddəalarına uyğun olaraq sığortalı olduğu Tərəfin qanunvericiliyinə müvafiq qaydada istifadə edir.

2. Əmək xəsarəti alan və ya peşə xəstəliyinə tutulan sığortalı şəxs, yaşayış yerini digər Tərəfə dəyişdirdiyi zaman, qeydiyyatda olduğu Səlahiyyətli İdarənin icazəsini almaq şərtilə bu yardımlardan istifadə etməyə davam edir. Bu icazə müddəti əlaqədar tibbi idarənin rəyinə əsasən Səlahiyyətli İdarənin razılığı ilə uzadıla bilər.

3. Bir şəxs yaşayış yerini digər Tərəf ölkəsinə dəyişdikdən sonra onda əmək xəsarəti və ya peşə ilə bağlı xəstəlik müəyyən edildikdə, qeydiyyatda olduğu idarənin razılığını almaq şərtilə həmin idarənin hesabına əmək xəsarəti sığortasının tibbi və müalicə yardımlarından istifadə etmək hüququnu özündə saxlayır.

4. 1-ci, 2-ci və 3-cü bəndlərdə nəzərdə tutulan yardımlar, Səlahiyyətli İdarənin hesabına əmək xəsarəti və peşə xəstəliyi aldığı Tərəfin qanunvericiliyinə əsasən ödənilir.

Maddə 20

Bir Tərəfin qanunvericiliyinə görə əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində iş qabiliyyətinin həmişəlik itirilməsi dərəcəsinin müəyyənləşdirilməsində, digər Tərəfin qanunvericiliyinə görə əvvəlcə baş vermiş əmək xəsarəti və peşə xəstəlikləri də öz Tərəfinin qanunvericiliyinə görə baş vermiş kimi hesab olunur. Əlaqədar şəxsə veriləcək yardımların müəyyən edilməsi 22-ci Maddənin 2-ci bəndinə müvafiq qaydada tətbiq edilir.

Maddə 21
Peşə xəstəlikləri ilə bağlı yardımlar

Peşə xəstəliyinə tutulan şəxs, hər iki Tərəf ölkəsində bu peşə xəstəliyinə səbəb ola biləcək bir işdə işləmişsə, sığortalının özünə və ya vəfat etdikdə buna hüququ olan şəxslərə ediləcək yardımlar, belə işin son dəfə icra edildiyi Tərəfin qanunvericiliyinə əsasən təmin edilir.

Maddə 22

Tərəflərdən birinin qanunvericiliyinə uyğun olaraq peşə xəstəliyinə görə yardım edilmiş sığortalı şəxs digər Tərəf ölkəsində yaşadığı müddətdə bu xəstəliyi ağırlaşarsa, aşağıdakı qaydalar tətbiq edilir:

1. İşçi yaşadığı yeni ölkədə peşə xəstəliyinin meydana gəlməsinə və ya ağırlaşmasına səbəb ola biləcək bir işdə işləməmişsə, sığortalının ilk ölkədə qeydiyyatda olduğu Səlahiyyətli İdarə, bu ağırlaşmanı da nəzərə alaraq öz qanunvericiliyinə görə zəruri olan yardımlar göstərir.

2. Sığortalı şəxs digər Tərəf ölkədə eyni və ya ona uyğun işdə işləmişsə, onun ilk ölkədə qeydiyyatda olduğu idarə, sonrakı ağırlaşmadan asılı olmayaraq, öz qanunvericiliyinə uyğun olaraq ediləcək yardımları öz üzərinə götürür; yeni yaşayış yerinin yerləşdiyi ölkədə qeydiyyatda olduğu Səlahiyyətli İdarə, işçiyə öz qanunvericiliyinə görə müəyyən edilən və ağırlaşmadan sonra ödənməsi lazım olan yardımın miqdarı ilə ağırlaşmadan əvvəl xəstəlik öz ölkəsində meydana gəldiyi təqdirdə yardım miqdarı arasındakı fərqə bərabər olan əlavə yardım ödəyir.

4-cü HİSSƏ
AİLƏ YARDIMLARI

Maddə 23
Yardımların müəyyən edilməsi

1. Uşaqlar üçün əlavə yardımlar ödəmə hüququ, digər Tərəfdə yaşayan uşaqlar da daxil olmaqla şəxsin sığortalı olduğu ölkə qanunvericiliyinə uyğun müəyyən edilir.

2. Uşaqlar üçün əlavə yardımlar ödəmə hüququ, hər iki Tərəfin qanunvericiliyinə görə qazanıldıqda, uşaqların yaşadığı ölkənin qanunvericiliyi tətbiq edilir.

3. Bu Maddənin 1-ci və 2-ci bəndinin müddəaları, pensiya alan şəxslər barəsində də qüvvədədir.

5-ci HİSSƏ
İŞSİZLİYƏ GÖRƏ YARDIMLAR

Maddə 24
İşsizliyə görə yardımlar üçün lazımi şərtlər

İşsizliyə görə yardımlar, şəxsin sığortalandığı ölkədə tətbiq edilən qanunvericiliklə həyata keçirilir. Yardımın müəyyən edilməsində, digər Tərəfdə keçən sığortalılıq müddətləri də nəzərə alınır.

4-cü BÖLMƏ
TİBBİ EKSPERTİZA

Maddə 25

Tərəf ölkələrin birində yaşayan və ya müvəqqəti olan şəxslərin əmək qabiliyyətinin itirilməsi halının müəyyən edilməsi üçün bir Tərəf qanunvericiliyi ilə nəzərdə tutulan tibbi ekspertiza, aidiyyəti şəxsin yaşadığı ölkənin idarəsi tərəfindən həyata keçirilir. Tibbi ekspertiza üçün xərclərin ödənməsi qaydası Tərəflər arasında bağlanacaq İnzibati (Prosedur) Müqavilə ilə nizamlanır.

5-ci BÖLMƏ
MÜXTƏLİF MÜDDƏALAR

Maddə 26
İnzibati (Prosedur) Müqavilə

Bu Sazişin tətbiq edilməsi ilə bağlı bütün üsul və qaydalar, Tərəflərin Səlahiyyətli Orqanları arasında bağlanılacaq İnzibati (Prosedur) Müqavilə ilə müəyyən ediləcəkdir.

Maddə 27
Məlumat mübadiləsi və qarşılıqlı yardım

1. Bu Sazişin həyata keçirilməsində məsul olan Səlahiyyətli Orqan və İdarələr:

1.1 Bu Sazişin həyata keçirilməsi üçün qanunvericiliklərinin imkan verdiyi hər cür məlumatı bir-birlərinə bildirirlər;

1.2 Bu Sazişə və ya bu Sazişin həyata keçirildiyi qanunvericiliyə uyğun olaraq hər hansı bir yardımın ödənilməsi və ya bu yardıma sahib olma hüququnun müəyyən edilməsi ilə əlaqədar olaraq bir-birinə lazımi köməklik göstərirlər;

1.3 Bu Sazişin həyata keçirilməsi üçün görülən bütün tədbirləri və ya Sazişin həyata keçirilməsinə təsir göstərən, qanunvericiliklərindəki dəyişiklikləri mümkün olan ən qısa müddətdə bir-birlərinə bildirirlər.

2. Bu Maddənin 1-ci bəndinin 1.2 abzasında göstərilən yardım, müəyyən xərclərin geri ödənilməsi üçün 26-cı Maddəyə uyğun olaraq tərtib edilən İnzibati (Prosedur) Müqavilədə olan müddəaların saxlanması şərtilə heç bir rüsum ödənilmədən təmin edilir. Bir Tərəfin Səlahiyyətli İdarəsi, digər Tərəfin Səlahiyyətli İdarəsindən ödəməni tələb etdikdə, ödənəcək məbləği ABŞ dolları ilə bildirir. Bunun əsasında, ikinci idarə bu məbləği birinci idarəyə ödəyir.

3. Bu Sazişə görə bir Tərəfin digər Tərəfə hər hansı bir şəxs haqqında göndərdiyi bütün məlumatlar, bir Tərəfin qanunlarına görə aşkarlanması yol verilənədək gizli saxlanılır, və yalnız bu Sazişin və onun həyata keçirildiyi qanunvericiliyin icrası məqsədi ilə istifadə edilir.

Maddə 28
Vergi, rüsum, və digər xərclərdən azad edilmə yaxud onlarla bağlı güzəştlər

Bir Tərəfin qanunvericiliyinin tətbiq olunması üçün lazım olan hər hansı bir sənədin hazırlanması ilə bağlı olaraq həmin Tərəfin qanunvericiliyi ilə nəzərdə tutulmuş vergi, rüsum, konsulluq xərcləri və ya inzibati xərclərdən azad edilmə, yaxud bunlarla əlaqədar hər hansı bir güzəşt, digər Tərəfin qanunvericiliyinin tətbiq olunması üçün lazım olan sənədlərin hazırlanmasına da aid edilir. Bu Sazişin həyata keçirilməsi üçün hazırlanacaq hər hansı bir rəsmi sənəd diplomatik və ya konsulluq idarələri işçilərinin təsdiqindən və buna bənzər formal işlərdən azaddır.

Maddə 29
Məlumat verilən dil

Bu Sazişin həyata keçirilməsi üçün Tərəflərin Səlahiyyətli Orqan və İdarələri bir-biriylə hər iki Tərəfin rəsmi dövlət dili ilə birbaşa əlaqə saxlayırlar.

Maddə 30
Tələb, məlumat və etirazların bildirilməsi

1. Tərəflərdən birinin qanunvericiliyinə görə, həmin Tərəfin Səlahiyyətli Orqan və ya İdarəsinə qanuni müddətdə edilən bir yardımın ödənməsinə və ya yardım hüququnun müəyyənləşdirilməsinə aid tələb, məlumat və ya etiraz, digər Tərəfin Səlahiyyətli Orqan və ya İdarəsinə təqdim olunmuş kimi qəbul edilir. Eyni qayda digər məsələlərə aid ərizə və etirazlar üçün də məqbuldur.

2. Bir Tərəfin qanunvericiliyinə uyğun yardım haqqında edilən tələb, digər Tərəfin qanunvericiliyinə uyğun olaraq edilmiş yardım tələbi kimi qəbul edilir.

3. 1 və 2-ci bəndlərin tətbiq olunduğu halda tələb, məlumat və etirazın təqdim edildiyi Səlahiyyətli İdarə və ya Orqan dərhal digər Tərəfin Səlahiyyətli Orqanına və ya İdarəsinə bu haqda məlumat verir.

Maddə 31
Yardımların ödənilməsi

Tərəflərin Səlahiyyətli İdarələri bu Sazişdən irəli gələn yardımları öz pul vahidi ilə ödəyirlər.

Maddə 32
Yardımların həcminin müəyyən edilməsi və yardım xərclərinin ödənilməsi

1.Bu Sazişdə nəzərdə tutulan yardımlar, şəxs hər iki tərəfin qanunvericiliyinə görə hər hansı yardım almaq hüququna malik olduqda, olduğu (yaşadığı) ölkənin qanunvericiliyinə uyğun, şəxs yalnız bir tərəfin qanunvericiliyinə görə hər hansı yardım almaq hüququna malik olduqda isə yaşayış yerindən asılı olmayaraq, yardımı təyin edən tərəfin qanunvericiliyinə uyğun müəyyən edilir.

Yardımlar hər hansı ölkənin qanunvericiliyinə görə qazanılmışsa, həmin Tərəfin Səlahiyyətli İdarəsinin hesabına ödənilir.

2. Bu Sazişdə nəzərdə tutulan hallarda göstərilən yardım, qarşılıqlı hesablaşma yolu ilə əlaqədar şəxsin qeydiyyatda olduğu ölkənin Səlahiyyətli İdarəsi tərəfindən, yardım edən ölkənin Səlahiyyətli İdarəsinə İnzibati (Prosedur) Müqavilə ilə müəyyən edilmiş qayda və əsaslar daxilində ödənilir.

Maddə 33
Mübahisələrin həlli

1. Tərəflərin Səlahiyyətli Orqanları Tərəflər arasında bu Sazişin şərhi və həyata keçirilməsi ilə bağlı meydana çıxan bütün mübahisələri müzakirə edərək həll etməyə çalışırlar.

2. Bir narazılığın 6 ay ərzində ortadan qaldırılması mümkün olmazsa, onun həlli Tərəflərdən birinin müraciəti ilə aşağıda göstərilən şəkildə təşkil olunan hakimlər heyətinə həvalə olunur:

2.1 Sazişdə Tərəf kimi təmsil olunan hər bir dövlət narazılığın həlli ilə bağlı müraciəti aldıqdan sonrakı 1 ay ərzində bir hakim təyin edir. Bu şəkildə təyin edilən 2 hakim, hakimi axırıncı təyin edən dövlətin bu təyinetməni bildirməsindən etibarən 2 ay ərzində üçüncü bir dövlətin nümayəndəsi olan bir şəxsi üçüncü hakim olaraq seçir.

2.2 Sazişdə Tərəf kimi təmsil olunan dövlətlərdən biri müəyyən olunan müddətdə hakim təyin etməzsə, digər dövlət Avropa İnsan Hüquqları Məhkəməsinin Sədrinə müraciət edərək hakim təyin etməsini tələb edə bilər. Təyin edilən iki hakim təyin olunacaq üçüncü hakimin seçilməsi məsələsində razılığa gəlməzsə, eyni qayda ilə Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edilə bilər.

2.3 Avropa İnsan Hüquqları Məhkəməsinin Sədri Sazişdə Tərəf kimi təmsil olunan dövlətlərdən birinin nümayəndəsi olarsa, bu Maddəyə görə ona verilən vəzifələr məhkəmə sədrinin müavininə, ya da üçüncü bir dövlətdən olan ən yüksək dərəcəli hakimə həvalə edilir.

3. Hakimlər heyəti səs çoxluğu ilə qərar çıxarır. Heyətin qərarları hər iki dövlət üçün məcburi xarakter daşıyır. Sazişdə Tərəf kimi təmsil olunan hər bir dövlət özünün təyin etdiyi hakimin xərclərini ödəyir. Digər xərclər Sazişdə Tərəf kimi təmsil olunan dövlətlər tərəfindən bərabər səviyyədə ödənilir. Hakimlər heyəti iş üsulunu özü müəyyənləşdirir.

6-cı BÖLMƏ
MÜVƏQQƏTİ MÜDDƏALAR

Maddə 34
Müvəqqəti müddəalar

1. Bu Sazişin qüvvəyə mindiyi tarixdən əvvəl tamamlanmış hər hansı bir sığortalılıq müddəti, bu Sazişə görə bir yardım hüququnun müəyyən edilməsində nəzərə alınır.

2. Bu Sazişin heç bir müddəası Sazişin qüvvəyə mindiyi tarixdən əvvəlki müddət üçün bir yardım ödənməsinə hüquq vermir.

3.Bu maddənin 2-ci bəndinin müddəalarının qüvvədə qalması şərti ilə birdəfəlik ödəmədən başqa digər bir yardım hüququnun qazanılmasında, bu Sazişin qüvvəyə mindiyi tarixdən əvvəl baş vermiş əmək xəsarəti, peşə xəstəliyi, əmək qabiliyyətinin itirilməsi, qocalıq və ölüm halları da nəzərə alınır. Yardımlar, bu Sazişin qüvvəyə mindiyi tarixdən etibarən 2 il ərzində yazılı müraciət edildikdə Sazişin qüvvəyə

mindiyi tarixdən, iki ildən sonra müraciət edildikdə isə tələbin verildiyi tarixdən sonrakı təqvim ayının əvvəlindən etibarən qanuni hesab edilmək şərtilə ödənilir.

Maddə 35
Sazişin qüvvəyə minməsi və müddəti

1. Bu Saziş 5 il müddətinə bağlanır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili proseduların yerinə yetirilməsi barədə Tərəflərin yazılı bildirişlərinin mübadiləsi tarixindən qüvvəyə minir. Əgər Tərəflərdən biri müvafiq müddətin başa çatmasına altı aydan gec olmayaraq Sazişin qüvvəsinin ləğv olunması niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Sazişin qüvvəsi növbəti beşillik dövrə uzadılır.

2. Bu Saziş ləğv olunduqda, Maddə 3-də göstərilən şəxslərin əldə etdikləri hüquqlar öz qüvvəsini itirmir və onların Sazişə əsasən əldə edilməkdə olduqları hüquqlar haqqında qərar qəbul edilməsi ilə bağlı müzakirələrə başlanılır. Bu barədə razılıq əldə edilmədiyi halda, narazılıqlar 33-cü maddəyə əsasən həll edilir.

Bu Saziş Ankara şəhərində 17 İyul 1998-ci il tarixdə iki nüsxədə Türk və Azərbaycan dillərində imzalanmışdır. Hər iki mətn eyni qüvvəyə malikdir.

TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

Prof. Dr. Nami ÇAĞAN
Əmək və Sosial Müdafiə Naziri

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

Əli NAĞIYEV
Əmək və Əhalinin Sosial Müdafiəsi Naziri